# Bakıda “Naxçıvan fotolarda” sərgisi



**Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə əlaqədar paytaxtın Beynəlxalq Muğam Mərkəzində “Naxçıvan fotolarda” adlı fotosərgi keçirilib.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Beynəlxalq Muğam Mərkəzi və “Şərq qapısı” qəzetinin təşkilatçılığı, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə təşkil edilən sərgidə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli, ictimaiyyət və media nümayəndələri iştirak ediblər.

Açılış mərasimində Fuad Nəcəfli Prezident İlham Əliyevin 2023-cü il dekabrın 30-da “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında” imzaladığı sərəncama əsasən silsilə tədbirlərin keçirildiyini diqqətə çatdırıb. O vurğulayıb ki, yubiley tədbirləri Naxçıvanla yanaşı, başqa şəhərləri, ölkələri də əhatə edir. “Naxçıvan fotolarda” sərgisi mart ayında Türkiyə Cümhuriyyətinin İğdır şəhərində də baş tutub. Aprelin əvvəllərində isə Kayseri şəhərində Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi kollektivinin iştirakı ilə muxtar respublikanın 100 illik yubileyi ilə əlaqədar tədbir keçirilib. İl ərzində də muxtar respublikanın yubileyi ilə bağlı bu kimi tədbirlərin keçirilməsi davam etdiriləcək.

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”ndan danışan Fuad Nəcəfli bildirib ki, bu sənəd Naxçıvanın bütün istiqamətlərdə kompleks inkişafını nəzərdə tutur. Bu fotosərgi isə Naxçıvanın turizm potensialının üzə çıxarılması, daha geniş arenada tanıdılması baxımından da əhəmiyyətlidir. O, sərgi ilə tanışlığın hər kəsdə xoş əhvali-ruhiyyə yaradacağına inam ifadə edilib.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, Milli Məclisin deputatı İsa Həbibbəyli 100 illik yubileyi qeyd olunan Naxçıvan Muxtar Respublikasına dövlət səviyyəsində göstərilən diqqət və qayğını yüksək dəyərləndirib. “Şərq qapısı” qəzetinin baş redaktoru Sara Əzimova isə çıxışında bildirib ki, “Naxçıvan fotolarda” sərgisi muxtar respublikanın 100 illik yubileyinə töhfədir. Burada təqdim olunan fotolar “Şərq qapısı” qəzetinin fotoqrafları tərəfindən çəkilib.

Ümumilikdə 62 fotonun nümayiş olunduğu sərgi böyük maraqla qarşılanıb. Ayrı-ayrı fotolar muxtar respublika haqqında zəngin təəssürat yaradıb.

Tədbir bədii hissə ilə davam edib. Beynəlxalq Muğam Mərkəzinin solistləri – xanəndə Arzu Əliyeva və Sərxan Bünyadzadənin ifasında maraqlı konsert proqramı təqdim olunub.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***